

**Leyla Namazova**

## Məktub

Bu gecə
gecənin varaq-varaq
qaranlığına
bəyaz misralar kimi
yazdım göz yaşlarımı...

Bu gücə üfüqlərin qəlbi
sıxılmasın deyə
dan yerindən asdım
baxışlarımı.

Bu gecə misralarımın
alnından öpdüm,
anamın duaları
diksindi...

Gecənin qulağına
Adını pıçıldadım,
dodaqlarım isindi.
Tənhalığı
körpə uşaq kimi
sıxdım köksümə.

Və bu gecəni
məktub kimi
yolladım özümə...

## Ocaq

Bu yaz da
çiçəkləmədi
xatirələrimdə bitən
alça ağacları.
Görən necə
dilə tutum,
necə ovudum
bu kiçik,
bu alcaq ağacları...
Səbrim
qoca dilənçi kimi
ovcunu açıb
əzan səsinə.
Ürəyimdə
misralardan ocaq
çatmışam ki,
alça ağaclarının
bəxti isinə...
Ümid nəfəsini
içinə çəkib
canavar ulayan  çöllərdə...

## Nakam sevgilər

Köynəyi islanıb yuxularımın,
Ahımı əynimə geyib gəlmişəm.
Bəlkə çiçəklədi bu arzum deyə,
Bəxtin qapısını döyüb gəlmişəm.

Dəsmal tək atılıb o tənha yarpaq,
Məhəbbət qoxulu görüş yerinə.
Götür isti-isti bu ayrılığı,
Qoy gözün üstünə öpüş yerinə.

O qara saçların, qara gözlərin,
Bir həsrət qoxulu bənövşəlikdi.
Çiçək tək açılır, solur da sevgi,
Həsrət bu dünyada həmişəlikdi.

Alın yazımızı bir əlçim kimi,
Götürüb apardı Məcnun küləklər.
Mənim həsrətimi, sənin qəmini,
Soyuq gülüşlərdə dəfn edəcəklər.

Həsrət sevgilərin görüş yeridi,
Bir həsrət göyərir, bir dərd qocalır.
Nakam sevgilərin qəbri başında,
Küləklər hər axşam "Vağzalı" çalır.

## Xatirələrin xatirəsi

Bir gün çiçək-çiçək xatirələrə,
Kəpənək yaddaşım uçub qonacaq.
Yaxası islanar kirpiklərimin,
Harayım üşüyər, səsim donacaq.

Başımı bir sözün çiyninə qoyub,
Dünyanı gözümdə dəfn eləyərəm.
Ömrümün xatirə xalçası üstə,
Körpə uşaq kimi iməkləyərəm.

Haçansa ömrümün yaşıl dəsmalı,
Dəcəl küləklərin əlinə düşər.
Dalınca yüyürüb getmək istərəm,
Saçımda astaca tellər gülüşər.

## Azadlıq

Gözləri açılmamış
küçükdü azadlıq,
hürmək iştahı daşır
hələ kəsilməmiş
qulaqlarından...

Misramın alnında
tər kimi puçurlayır
bir dünya xəbəri;
Arxeoloqlar
bir cüt qulaq atpıb
əfqan çöllərində.

P.S. Misralarımda qazıntı işlərini
qurtarın, cənablar.